

Barat Vüsal



www.kaspi.az 7 noyabr 2015

## MƏN BİR SÖZƏM...

Eşq əlində deyilsə,
Əllərdədi yaxam, bil!
Harda könül yoxdusa,
Həmin yerdə yoxam, bil!

Mən bir sözəm, "Bəli"yəm,
O sözçün ölməliyəm.
Sağlığımda ölüyəm,
Mən öləndə sağam, bil!

Ey görən, ey götürən,
Anadiləm, ötürəm!
Oyaq vaxtı yatıram,
Yatanda oyağam bil!

Mən dərədə zirvəyəm.
Alçaqdakı ucayam,
Uşaqdakı qocayam,
Qocada uşağam, bil!

Taxtda şah İsmayılam,
Bax da!... şah İsmayılam!
Çoxdan şah İsmayılam,
Mən həmənki şaham, bil!

## HEÇ NƏ BİLMİRSƏN

Sən mənim haqqımda heç nə bilmirsən,
Yaxşıdı... yaxşıdı hələ bilməsən!
Sən mənim yanıma nahaq gəlirsən,
Sən mənim könlümə gələ bilməsən!

Hər gələn yalandan gəlib gedəcək,
Ağlayan sanma ki, gülüb gedəcək.
Bircə Kərəmi var, ölüb gedəcək,
Bütün bu aləmi Lələ bilməsən!

Nə var, göydən gəlib, göyün olacaq,
Açılan düyün də düyün olacaq.
Öyün olmayacaq... öyün olacaq,
Məni belə bilsən... belə bilməsən!

Mənə atacaqlar... ox çatmayacaq,
Məni öldürməyə vaxt çatmayacaq.
Axırım çatacaq... yox, çatmayacaq,
Mənə gülə bilsən... gülə bilməsən!

Sən məni sevərsən... sevə bilməzsən,
Sən məni öyərsən... öyə bilməzsən.
Sən məni baxanda görə bilməzsən,
Sən məni görmədən görə bilməsən!?

## AŞİQ OL

*Küçədə bir nəfəri döyürdülər, dinmirdi. Görənlər sonra ona dedilər ki, səni qırmancladıqca niyə qışqırmırdın?*
*- Sevgilim yaxınlıqdakı pəncərədən baxırdı, axı - deyib bir qızı göstərdi.*
*F.Əttar*

Yolunan güllərə bax,
Gör dinirmi sən allah?
Sən də belə ol hər vaxt,
Könlüm, aşiq ol, aşiq!

Can- cələf ələ gəlsə,
Yol göstər, yola gəlsə!
Şükür de, bəla gəlsə,
Dilim, aşiq ol, aşiq!

Yandın, sönmə beləcə,
Qalxdın, enmə beləcə!
Söndün, dinmə beləcə,
Külüm, aşiq ol, aşiq!

Gör necə müəmma var.
Sonradan da sonra var.
Mənə varma, Ona var,
Yolum, aşiq ol, aşiq!

Axtar, tap doğru elmi,
Əsl haqq yolu- elmi!
Eşqə çevir bu elmi,
Alim, aşiq ol, aşiq!

İncitmə, ayıb elə,
Bu günü, ayı belə!
Ötmə havayı belə,
İlim, aşiq ol, aşiq,

Haqqa gedən yoldan ol,
Düş taqətdən, haldan ol!
Allah deyən "Ol!" dan ol,
Olum, aşiq ol, aşiq!

Öldüm, nə xoş gün gördüm,
Deməərəm ki, öldürdün.
Sən də demə: "Öldürdüm!"
Ölüm, aşiq ol, aşiq!

## BÖYÜK ADAM

Yekə daş olmayıb, qaya olmayıb,
Balaca ürəyim şair olubdur.
Yaxşı ki, bu "boyda" dünya olmayıb,
Balaca ürəyim şair olubdur.

Baxmır ki, bu qədər söz anlamaz var,
Xar edir adamı, söz anlamaz, xar!
Qorxmur ki, öldürər söz anlamazlar,
Balaca ürəyim şair olubdur.

Ürəyi qiymətə mindirəm gərək,
Qiymətsizi atdan endirəm gərək.
Mən qol açam gərək, sındıram gərək,
Balaca ürəyim şair olubdur.

Mən şeir yazıram... özüm də kənddən,
Ürəyim də kənddə, gözüm də kənddə.
Şükür, şair çıxdı bizim də kənddən,
Balaca ürəyim şair olubdur.



Deyirəm özümü öyüb, adamam,
Allahın nəfəsi dəyib, adamam.
Mən böyük adamam, böyük adamam,
Balaca ürəyim şair olubdur!

* * *

Ömürün dadı olmazdı,
Ölümün dadı olmasa.
Heç kim həddini bilməzdi,
Hər şeyin həddi olmasa!

Yetənlər kama yetməzdi,
Canından cana yetməzdi.
Gedənlər dərdli getməzdi,
Gələnlər dərdli olmasa!

Özüm batırıb səsimi,
Özüm tutardım yasımı,
Pozardım alın yazımı,
Allahın xətti olmasa!

* * *

Pərvanəsiz ömrü-günü
Öldürsən də, şam götürmür.
Vətən üçün döyüşəndən,
Sarğını yaram götürmür.

Bu talemdi, nəsə, belə,
Qalasıdı qalsa belə!
Lap xeyrinə olsa belə,
Rəmmal atır ram, götürmür!

Halalı olsun bu hünər,
Artıb öyülsə,öyünər!
Artıq döyünsə dayanar,
Ürəyim haram götürmür!

## NƏFƏSİM

Yaxşı tanıyıram özüm nəfəsi,
Ürəyim nəfəsi, gözüm nəfəsi!
Qoymaram kəsilsin sözün nəfəsi,
Söz nəfəs alanda... gəlir nəfəsim!
Bülbülə güllər də qəfəs kimidir,
Həm kəsilən səsdir, həm səs kimidir.
Elə insanlar da nəfəs kimidir,
Kimi düşmənimdi, kimi nəfəsim?!

Yaman varlandırıb bu" gəlir "məni,
Eyləyib hamıyla birgəli məni.
Ağıllı eyləyib bu dəli məni,
Ağıllı nəfəsim, dəli nəfəsim.

Mən baxtlı adamam, baxtsız adamam,
Mən bax, bu adam yox. bax, bu adamam.
Barat, mən nəfəsə məxsus adamam,
Mən elə bax, buyam- bəli, nəfəsim!

## GÜNBATAN

*"Sənə Günəş batdığı anda, günbatanda yazıram bu məktubu. (Sabirabaddan Su qovuşan deyilən yerdən gələn məktubdan)*

Mənə Günbatanda yazılan məktub,
Alarsan cavabı bir Gündoğanda!
Götürüb çatdığım təndirə yapdım,
Aldığım hər kəlmə bir kündə donda...

Mənə Günbatanda yazılan məktub,
Sənə Günbatanda cavab yazamam,
Sənə Gündoğanda cavab yazaram.
Mənə Günbatanda hər gün yazıl, gəl,
Sənə gündə onda məktub yazaram!

...Mən məktub yazmağa hazıram, məktub,
Üzümü qibləyə tutub yazıram.
Mənə Günbatanda yazılan məktub,
Sənə Gündoğanda məktub yazıram!

Mənə Günbatanda yazılan məktub,
İnana bilmirəm gün bata indi.
Sənin Günbatanın - mənə Gündoğan.
Mənim Gündoğanım - Günbatanındı,
İnana bilmirəm, Gün bata indi!

Mən könül sirrini bildim, nə sirmiş,
Susa bu aşiqin gündə qanına.
Deməli, Günbatan məktub yazırmış,
Özünün ay allah, Gündoğanına?!

Bəla gələ-gələ daşır daşanda,
Belə gələ-gələ sovuşur bəlkə?
Kür-Araz qovuşmur Suqovuşanda,
Günbatan... Gündoğan qovuşur bəlkə?!

Hər şeyə hazırsan a Günbatanım,
Min qadam olmasın, deyə hazırsan.
Sən məktub yazırsan a Günbatanım,
Günbatan olmasın, deyə yazırsan?!

Səni Günbatanda yazılan məktub,
Aldım Gündoğanda.. bir xatammı var?
Bax, mən olan yerə Gün doğur necə,
Heç sən olan yerdə Günbatanmı var?!

Könül, alış belə, könül, yan, belə,
Tuşla barmağını... o Günbatanmı?
Nə vaxt düz gəlməsən Günbatan ilə,
Varsa taleyində nə gün... batandı?!

... Bəşər köçmək üçün sanki hazırmış,
O Gündoğan yerə... o Dan atana...
Bəlkə Günbatanlar məktub yazırmış,
Əlvida söyləyib qürub çağına,
Əlvida söyləyib son Günbatana?!

* * *

Görüb bu oyunları,
Ataqmı pal-paltarı?
Bu yarıçılpaq qarı
Qoy yarıçılpaq getsin!

Ömrünü verdi bada,
Çılçıraq, sərvət, ya da....
Bəlkə məzarına da
Qoyaq çılçıraq, getsin!?

Yolun azdı adamlar,
Çox yox... azdı adamlar.
Bəlkə tozdu adamlar?
Bu Yeri çırpaq, getsin!

## ŞEİR YAZANDA

Yazmaq üçün dağa-daşa düşmürəm,
Bax, yenə də ilham gəlib, yazıram.
Özüm duru... sözüm duru olsunmu?
Ona görə ölüb... ölüb, yazıram.

Bircə əllə yazmayıram mən, xeyr,
Qoşa əllə şeir yazır bir şair.
Bir əlimlə Səməd Vurğun söyləyir,
Bir əlimlə Hüseyn Arif yazıram.

Hər nə yazsam, sazımın da payı var.
Yolumun da, izimin də payı var.
Əlimin də, gözümün də payı var,
Ürəyimi yarı bölüb yazıram!

Yalan yazır, düz yazıram, ay Barat,
Allah deyir yaz! - Yazıram, ay Barat!
Mən bu qədər söz yazıram, ay Barat,
Elə bil ki, bircə hərf yazıram!

## ÖZGƏ TOYLARI

Hamıya mağarı könlündə qurdu,
Bu payız özünə toy edəmmədi.
Söz verdi, sözünün üstündə durdu,
Bu payız özünə toy edəmmədi.

Göydən endi, yerin qatından çıxdı,
Yollara öz köhlən atınnan çıxdı.
Öz ömrü, taleyi yadından çıxdı,
Bu payız özünə toy edəmmədi.

Çoxunun hoyuna yetdi, sağ olsun,
Çoxunun toyuna getdi, sağ olsun!
Çoxunun toyunu etdi, sağ olsun,
Bu payız özünə toy edəmmədi.

Toyu eyləməyə məkan da tapdı,
Özü oynamağa imkan da tapdı.
Kasıb uşağına nişan da taxdı,
Bu payız özünə toy edəmmədi.

Sanki alınmadı nəsə öz toyu,
Qaldı yenə deyən, yaza, öz toyu.
Özgə toylarıymış yoxsa öz toyu?
Bu payız özünə toy edəmmədi.

Məlikməmməd düşən quyu bu imiş,
Yəqin ki, qartalın qıyı bu imiş,
Bəlkə bu payızın toyu bu imiş?
Bu payız özünə toy edəmmədi!

Qayıtdı özünə payızda Barat,
Xoşbəxtdi deyirlər, o üzdən Barat.
Barat da payızmış... payız da Barat,
Bu payız özünə toy edəmmədi.

## USTADIMA

Necə olur, şair belə ucalır?
Göyə qalxan nərdivanı var onun.
Qartal kimi zirvələrdə süzməyə
Var ümidi, var gümanı, var, onun!

Hərif olar, arif olmaz hər adam,
Zəif olar, zərif olmaz hər adam.
Sevə bilməz, Qərib olmaz hər adam,
Tarixlərdə yar nişanı var onun!

Aqillərin gücü inci, gücü dürr,
Saf məhəbbət, saf xəzinə - güc budur!
Deyim niyə Barat Vüsal güclüdür,
Həsənzadə Nərimanı var onun.